# SƏRBƏST AUDİTOR NURİYEV ALQIŞ TƏRLAN OĞLU

**VÖİN № 1000330652**

## AUDİTOR RƏYİ SERİYA AN № 0474
## MÜSBƏT RƏY

**Bakı şəhəri**
**«Rəvan Sığorta»ASC** **22 fevral 2012-ci il**

Mən Azərbaycan Respublikasının Auditorlar Palatasının 30.09.2011-ci il tarixli 047516 saylı lisenziyasına əsasən fəaliyyət göstərən sərbəst auditor Nuriyev Alqış Tərlan oğlu sifarişçi ilə bağladığımız 22.02.2012-ci il tarixli AN № 0474 saylı müqaviləyə sasən **«Rəvan Sığorta» ASC-nin** 01.01.2011-ci il tarixdən 01.01.2012-ci il tarixə qədər olan dövrünün maliyyə fəaliyyətinin audit araşdırmasını apardım.

Audit araşdırması təqdim olunmuş sənədlər əsasında aparıldı. Audit araşdırmasına təqdim edilən sənədlərin düzgünlüyünə sifarişçi təsərrüfat subyekti olan **«Rəvan Sığorta» ASC-nin** rəhbərliyi məsuliyyət daşıyır.

Mənim vəzifəm həmin sənədlərə əsasən aparılmış yoxlama nəticəsində sifarişçinin maliyyə hesabatlarının vəziyyətinə, illik mühasibat hesabatları maddələrinin doğruluğuna, mühasibat uçotunun ümumi vəziyyətinə qiymət verməkdir və mən yanlız bu rəydə əks olunmuş mülahizələrimə görə məsuliyyət daşıyıram.

Mülahizələri düzgün formalaşdırmaq üçün kifayət qədər auditor sübutlarının toplanması məqsədi ilə mən qüvvədə olan audit standartlarının tələblərinə uyğun olaraq auditi planlaşdırmış və audit prosedurаlarını yerinə yetirmişəm.

Audit zamanı təqdim olunmuş sənədlərdə əsas kimi götürülmüş təsdiqedici sənədlər yoxlanılmış, habelə sifarişçinin tətbiq etdiyi uçot prinsipləri qiymətləndirilmişdir.

Hesab edirəm ki, yerinə yetirilmiş audit prosedurаların nəticəsində rəy vermək üçün kifayət qədər auditor sübutları toplamışam.

Mənim mülahizəmə görə təqdim olunan maliyyə hesabatları **01 yanvar 2012-ci il** tarixinə bütün mövcud aspektlərdə təsərrüfat subyektinin faktiki maliyyə vəziyyətinin nəticələrinin düzgünlüyünü göstərməklə Azərbaycan Respublikasında maliyyə hesabartlarının tərtibi və mühasibat uçotu üzrə qanunvericilik və normativ aktların tələblərinə müvafiqdir.

Rəy **28 mart 2012-ci il** tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçidə, ikincisi isə sərbəst auditorda saxlanılır.

**Sərbəst auditor:** **A.Nuriyev**